https://doi.org/10.58225/sw.2023.1-149-157

AZƏRBAYCANDA İQTİSADİ ARTIMIN TƏMİN EDİLMƏSİNİN MÜASİR AMİLLƏRİ VƏ ŞƏRTLƏRİNİN TƏHLİLİ

Hacıyev Camal Cəlil oğlu- i.ü.f.d., dosent, Az.Turizm və Menecment Universiteti, jamalhajiyev@yandex.ru

Xülasə. Dünyada iqtisadi artım problemi bir neçə onilliklər ərzində aktualdır. Ona artan maraq böyük dərəcədə müxtəlif dövlətlərin inkişaf templərinin qeyri-bərabərliyi, XX əsrin sonunda sənayeləşmiş ölkələrin artım sürətinin yavaşlaması və yoxsul dövlətlərin dünyanın aparıcı fövqəldövlətlərindən daim geriləməsi ilə bağlıdır. Bununla yanaşı, Çin, Malayziya, Sinqapur, Tailand və Koreya kimi bir sıra inkişaf etməkdə olan ölkələrdə inkişafın müəyyən mərhələlərində Ümumi daxili məhsul sabit yüksək artım templəri müşahidə olunub ki, bu da onlara inkişaf etmiş dövlətlərlə rifahın yaxşılaşmasında mühüm nailiyyətlər əldə etməyə imkan verib. Bəzi ölkələrin sürətli inkişafına kömək edən və digər ölkələrin Ümumi daxili məhsulun artımını ləngidən mexanizmlərin üzə çıxarılması XX əsrin ikinci yarısının Dünya İqtisadi ədəbiyyatının əsas problemlərindən birinə çevrilmişdir. Məhz bu dövrdə çoxsaylı empirik tədqiqatların aparılması üçün əsas olan bir sıra iqtisadi artım nəzəriyyələri işlənib hazırlanmışdır. Azərbaycanda da iqtisadi artıma təsir edən amillər və şərtlər həmişə iqtisadçı alimlərin diqqət mərkəzində olmuşdur. Bu baxımdan iqtisadi artım və eləcə də iqtisadi inkişaf aktual məsələlərdəndir. Məqalədə Azərbaycanda son illər iqtisadi artıma təsir edən amillər təhlil edilmiş, əldə edilmiş nəticələrin təhlili əsasında iqtisadi artım tempinə müsbət təsir göstərən amillər müəyyənləşdirilmişdir

Açar sözlər: iqtisadi artım, iqtisadi artım tipləri, iqtisadi artım amilləri, ÜDM, ÜMM

ANALYSIS OF MODERN FACTORS AND CONDITIONS OF ENSURING ECONOMIC GROWTH IN AZERBAIJAN

Hajiyev Jamal Jalil- PhD in econ., ass.prof., Az. Tourism and Management University, jamalhajiyev@yandex.ru

Abstarct. The problem of economic growth in the world has been relevant for several decades. The growing interest in it is largely due to the unevenness of the development rates of different countries, the slowdown in the growth rate of industrialized countries at the end of the 20th century, and the continuous decline of poor countries from the world's leading superpowers. At the same time, a number of developing countries such as China, Malaysia, Singapore, Thailand and Korea have seen stable high growth rates of GDP at certain stages of development, which has allowed them to achieve important achievements in improving welfare with developed countries. Revealing the mechanisms that contribute to the rapid development of some countries and slow down the GDP growth of other countries has become one of the main problems of the World Economic literature of the second half of the 20th century. It was during this period that a number of theories of economic growth were developed, which are the basis for conducting numerous empirical studies. Factors and conditions affecting economic growth in Azerbaijan have always been the focus of economic scientists. In this regard, economic growth and economic development are urgent issues. In the article, the factors affecting the economic growth in Azerbaijan in recent years were analyzed, based on the analysis of the obtained results, the factors that had a positive effect on the rate of economic growth were determined.

Keywords: economic growth, types of economic growth, factors of economic growth, GDP, GNP

Giriş. Bütün ölkələrdə iqtisadi vəziyyəti iki mühüm göstəricilə təyin etmək olar. Bunlara iqtisadi artım və inflyasiya səviyyəsi aiddir. İqtisadi artım ölkənin iqtisadiyyatının səviyyəsinin və

iqtisadi inkişafının göstəricisi inflyasiya isə sabitliyin atributu hesab olunur. Doğrudur, iqtisadi inkişaf iqtisadi artımdan daha mücərrəd olmaqla yanaşı, ekoloji, mənəvi, sosial, və s. Başqa amilləri də özündə birləşdirir. Ancaq ölkədə yüksək iqtisadi bir inkişaf olmasl üçün əsas şərt ilk növbədə iqtisadi artımın davamlılığının təmin edilməsidir. Qeyd etmək lazımdır ki, istənilən iqtisadi artım uzunmüddətli iqtisadi inkişafı təmin edə bilməz və bunun üçün dinamik balanslaşdırılmış iqtisadi artıma nail olmaq çox vacibdir. Başqa sözlə desək, iqtisadi artımın elə səviyyəsinə nail olunmalıdır ki, o, dövrdən-dövrə dinamik dəyişən məcmu tələblə məcmu təklifin bərabərliyini təmin etsin. Belə bir iqtisadi artım səviyyəsinə nail olmaq üçün müxtəlif iqtisadi konsepsiyalar işlənib hazırlanmışdır. Lakin onların arasında Keynsçi və neoklassik iqtisadi məktəblərin təklif etdiyi iqtisadi artım modelləri daha geniş tətbiqi ilə seçilir [7].

Cəmiyyətin inkişafının müxtəlif mərhələlərində iqtisadi artımın mahiyyətinin və rolunun qiymətləndirilməsi fərqli xarakter daşımışdır. Müəyyən dövr ərzində əhalinin artımı ilə müvafiq tələblərin genişlənməsi və resursların dinamikası arasında olan tarazlı vəziyyətin uyğunsuzluğu iqtisadi artım probleminin aktuallığını müəyyən etmişdir. Həmçinin, artan tələbatın məhdud resurslar daxilində qarşılanmasını elmi əsaslarla təşkil etmək zərurəti yaranmışdır. Bu baxımdan müasir dövrdə insan amilinin qabarıq formada həlledici amil kimi tanınmasında iqtisadi artımın məhdud resurslardan səmərəli şəkildə istifadə edilməsi xüsusiyyəti durur. [8]

Tədqiqat metodları. Ümumiyyətlə, iqtisadi artım bir çox sosial-iqtisadi problemlərin həllinin əsas vasitəsi kimi qəbul edilir. Belə ki, iqtisadi artım ümumidaxili məhsulun kəmiyyət artımını əks etdirir və əhalinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olur. Başqa sözlə desək, iqtisadi artım cəmiyyətin inkişafının əsasında duran və lokomotiv rol oynayan amillərdən biridir. Buna baxmayaraq, təcrübə göstərir ki, müəyyən müddətdən sonra yalnız iqtisadi artım naminə həyata keçirilən tədbirlər cəmiyyətin qeyd olunan əsas probleminə müsbət təsir etməklə yanaşı, əksinə, resurslardan səmərəsiz istifadəyə gətirib çıxarır. Ona görə də iqtisadi artımın kəmiyyət artımı ilə yanaşı keyfiyyətin yüksəldilməsi müasir dövrün tələbləri sırasındadır. Məhz bu aspektdən potensial imkanlar əsasında keyfiyyətli iqtisadi artımın təmin edilməsi həmişə aktual olub və bu gün də aktualdır. [9]

İqtisadi ədəbiyyatda əsas (ilkin) olan amilləri adətən istehsal amilləri adlandırırlar. Onların içərisində mərkəzi yeri insan əməyi tutur. Bu zaman təkcə fəhlələrin deyil, muzdlu işçilərin, mühəndislərin, texnoloqların, menecerlərin də fiziki səyləri nəzərə alınır. [12]

Həmçinin, ilkin amillərə istehsal prosesində istifadə edilən təbii ehtiyatlar (bura faydalı qazıntılar və torpaq addir) daxildir. Təbii ehtiyatlara xüsusi şəkildə emal olunmadan təbii yolla məhsuldar istifadə oluna bilən obyektlər (tikinti üçün nəzərə alınmış ərazilər, yanacaq meşələr, mineral xammal, və s.) aid edilir.

Onların hər biri sadəcə iqtisadi prosesin məhsulu hesab olunmur həmçinin, bioloji və ya fiziki mənşəyə malik hesab olunur və hüquqa əsaslanan bir amil kimi qəbul edilmişdir [13]. Vaxt – əsas amillər toplusuna aiddir . Burada təsərrüfat tipli əməliyyatların vaxtını, onların icra sürətini, işin başlama və bitmə vaxtlarını əvvəlcədən müəyyənləşdirir.

Müzakirələr. İqtisadi nəzəriyyədə iqtisadi artımın müxtəlif modelləri nəzərdən keçirilir: Kobb-Duqlas modeli, Yan Tinbergen modeli, V. Leontyev modeli, R. Solou modeli, E. Domar modeli, R. Harrod modeli və s. Bunların arasında E. Domar və R. Harrod modelləri iqtisadi artımın təmin olunmasında investisiya amilinin rolunu önə çəkirlər. Bu metodoloji yanaşmalardan çıxış edərək milli iqtisadiyyatların aparıcı sahələrinə yatırılan investisiyaların ölkələrin iqtisadi artımına təsir effektlərini hesablamaq mümkündür. Bu gələcək dövrlərdə iqtisadi artımın tempini proqnozlaşdırmağa imkan verəcək [13].

Azərbaycanda iqtisadi artımın sürətinə təsir edən amillərin təhlilini də bu aspektdən neft sektoruna yatırılan investisiyalar və bu sahənin əsas məhsulu – neftin qiymətinin dinamikası əsasında aparmaq məqsədəuyğundur.

Azərbaycanda dövlətin prioritetlərindən biri də ölkənin iqtisadi artımının kəmiyyət artımı ilə yanaşı keyfiyyət artımına nail olmaqdır. Bununla yanaşı iqtisadi artımın davamlılığını təmin etməkdir. Düzdür iqtisadi artıma təsir edən çoxsaylı iqtisadi və qeyri-iqtisadi təsirlərin nəticəsində uzunmüddətli iqtisadi artıma nail olmaq çətindir. Beləki, 2008-ci ildən bütün dünyada baş verən

maliyyə böhranı, COVID- 19 pandemiyası, neft qiymətlərinin dünya bazarlarında düşməsi, yeid\n başlayan maliyə böhranı və s ölkələrdə stabil iqtisadi artımın müsbət dinamikasına mənfi təsir göstərir.Aşağıdakı cədvəldə əvvəlki ilə nisbətən, faizlə ÜDM- in artım sürətləri qeyd olunub.

Cədvəl 1. ÜDM- in artım sürətləri, əvvəlki ilə nisbətən, faizlə [13]

İllər / *Göstəricilər*	*Ümumi daxili məhsul- cəmi, o cümlədən*	*neft-qaz sektoru*	*qeyri-neft sektoru*	*məhsula və idxala xalis vergilər*
2010	105.0	101.8	107.7	107.6
2011	100.1	90.2	109.4	108.3
2012	102.2	94.9	109.7	106.9
2013	105.8	100.9	109.9	108.5
2014	102.8	97.1	107.0	104.9
2015	101.1	100.6	101.1	103.7
2016	96.9	100.1	95.6	95.6
2017	100.2	94.7	102.8	102.5
2018	101.5	100.5	102.0	101.6
2019	102.5	100.4	104.0	103.1
2020	95.8	93.5	97.1	96.8
2021	105.6	101.2	107.1	108.6

Aşağıda Azərbaycanda ÜDM-nin son illər dinamikası verilmişdir. Həmçinin burada ÜDM-nin neft və qeyri-neft sektoru üzrə dinamikası da verilmişdir.

Cədvəl 2. İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ümumi daxili məhsul istehsalı [13]

Göstəricilərlər	*Ümumi daxili məhsul - cəmi, mln. manat, o cümlədən*	*Neft-qaz sektoru ÜDM*	*Qeyri-neft sektoru ÜDM*	*Bütün mənbələr üzrə investisiya qoyuluşları (xarici investisiyalar nəzərə alınmaqla), mln.manat*	*Xarici investisiyalar, mln.manat*	*Daxili investisiyalar, mln.manat*	*Neftin qiyməti*
2010	42 465,0	20 409,5	19179,0	14118,9	6619,7	7499,2	78
2011	52 082,0	25 829,9	23196,1	17048,8	6849,8	10199,0	110,8
2012	54 743,7	24 487,3	26864,4	20251,0	8102,7	12148,3	112,2
2013	58 182,0	23 778,1	30525,9	21448,2	8269,3	13178,9	109,1
2014	59 014,1	21 405,2	33195,9	21890,6	9175,6	12715,0	104,1
2015	54 380,0	15 382,2	34138,8	20057,4	10998,9	9058,5	54,5
2016	60 425,2	19 552,6	35951,1	22706,4	16216,1	6490,3	41,9
2017	70 337,8	25 005,4	40328,0	24462,5	15697,3	8765,2	53
2018	80 092,0	32 231,7	41662,0	25877,0	14002,1	11874,9	71,3
2019	81 896,2	30 051,9	44481,8	24986,6	12119,5	12867,1	
2020	72 578,1	20 417,5	45312,2	22484,0	10413,2	12070,8	
2021	92 857,7	33 930,6	51082,9				

Cədvəl 2-dən göründüyü kimi ölkənin iqtisadi artımını əyani vəziyyətdə təqdim edən ÜDM-nın dinamikası 2010-cu ildən 2019-cu ilə qədər müsbət artımlıdır. 2010-cu il ilə müqayisədə 2019-cu ildə ümumi daxili məhsulda 39431,2 mln.manat, yaxud 92,86 % artım müşahidə edilirdi. 2020-ci il dünyada, o cümlədən ölkəmizdə iqtisadi artıma mənfi təsir göstərdi. Səbəb - dünyanı cənginə alan COVİD-19 infeksiyasıdır. Pandemiya ölkəmizdə ÜDM-un dinamikasında azalma baş verdi. Belə ki, 2019-cu il ilə müqayisədə 2020-ci ildə ümumi daxili məhsulda 9318,1 mln. manat, yaxud 11,38% azalma müşahidə edilirdi. Lakin 2021-ci ildə ölkəmizdə ÜDM-un artımı 2010-cu ildən bəri ən yüksək həddə çatdı. 2020-ci il ilə müqayisədə 2021-ci ildə ümumi daxili məhsulda 20279,6 mln.manat, yaxud 27,94 % artım müşahidə edilirdi.

İqtisadiyyata yönəldiən investisiyalarda 2010-2018-ci illər ərzində müsbət artım tendensiyası müşahidə olunmuşdur.Belə ki, 2018-ci ildə investisiyalar 2010-cu ilə nisbətən 83.3% yəni 11758.1 mln. manat artmışdır. 2019-cu ildə mənfi yöndə artımla investisiyaların həcmində 3.5% yəni 890.4 mln manat azalma baş verdi. 2020-ci ildə yenidən azalma baş vermişdir. Bu zaman 2019-cu ilə nisbətdə investisiyalar 10.1% yəni 2502.6 mln. manat azalıb. Bunun səbəbi kimi pandemiya və onun iqtisadiyyata vurduğu zərərləri göstərmək olar.

Xarici investisiyalar 2016-2017-ci ilə qədərki dönəmlərdə müsbət artımla qeydə alınmışdır. Daxili investisiyalar isə 2010-2014-cü ilə qədər ki dönəmdə artsa da 2014-2017-ci illərdə azalma görünmüşdür. Lakin 2017-ci ildən sonra daxili investisiyaların artıb,xarici investisiyaların azalması sahibkarlığın inkişafını göstərir. Belə ki, 2017-ci ildə 2014-cü ilə nisbətdə 31.06% yəni, 3949.8 mln manat azalan daxili investisiyaların həcmi, 2019-cu ildə 2017-ci ilə nisbətən 46.8%, yəni 4101.9 mln manat artmışdır. 2020-ci ildə isə pandemiyanın təsiri ilə yenidən azalmışdır. Bu azalma 6.2%yəni 796.3 mln manat təşkil etmişdir. Xarici investisiyalar 2017-ci ildən bəri azalma tenden siyahısı ilə davam edir. Belə ki, bu 4 ildə (2017-2020) xarici investisiyaların həcmi 35.8% yəni 5802.9 mln manat azalmışdır.

Məlumdur ki, Azərbaycan gəlirləri əsasən neft və qaz sektorundan gələn vəsaitlər hesabına formalaşır. Ona görə də iqtisadi artıma dünya bazarında neftin qiymətinin dinamikası da təsir edir. Ona görə də aşağıdakı cədvəldə dünyada neftin qiymətlərinin dinamikası verilmişdir.

Bütün bu qeyd olunanları ümumiləşdirərək cədvəl 2-də göstərilən məlumatlara əsasən son 10 ildə Azərbaycanda ümumi daxili məhsulun artımın ekonometrik qiymətləndirilməsi modeli qurulmuş və reqresiya-korelyasiya təhlili aparılmışdır.

Estimation Command:

==========

LS LOG(UDM_M) C LOG(INVES) LOG(NDQ) @TREND AR(1)

Estimation Equation:

==========

LOG(UDM_M) = C(1) + C(2)*LOG(INVES) + C(3)*LOG(NDQ) + C(4)*@TREND + [AR(1)=C(5)]

Substituted Coefficients:

==========

LOG(UDM_M) = 3.73630317133 + 0.628053687173*LOG(INVES) + 0.167950064181*LOG(NDQ) + 0.0547071980975*@TREND + [AR(1)=0.586717421051]

Dependent Variable: LOG(UDM_M)
Method: Least Squares
Date: 03/30/23 Time: 19:34
Sample (adjusted): 2011 2020
Included observations: 10 after adjustments
Convergence achieved after 36 iterations

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.

C	3.736303	2.527561	1.478225	0.1994
LOG(INVES)	0.628054	0.271159	2.316181	0.0684
LOG(NDQ)	0.167950	0.076162	2.205179	0.0786
@TREND	0.054707	0.015641	3.497696	0.0173
AR(1)	0.586717	0.300459	1.952736	0.1083

R-squared	0.967608	Mean dependent var	11.05984
Adjusted R-squared	0.941694	S.D. dependent var	0.165913
S.E. of regression	0.040062	Akaike info criterion	-3.289914
Sum squared resid	0.008025	Schwarz criterion	-3.138622
Log likelihood	21.44957	Hannan-Quinn criter.	-3.455882
F-statistic	37.33974	Durbin-Watson stat	2.158598
Prob(F-statistic)	0.000646		

Inverted AR Roots	.59

Heteroskedasticity Test: Breusch-Pagan-Godfrey

F-statistic	3.322539	Prob. F(3,6)	0.0982
Obs*R-squared	6.242395	Prob. Chi-Square(3)	0.1004
Scaled explained SS	0.976954	Prob. Chi-Square(3)	0.8068

Test Equation:
Dependent Variable: RESID^2
Method: Least Squares
Date: 03/30/23 Time: 19:38
Sample: 2011 2020
Included observations: 10

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
C	0.047224	0.032644	1.446607	0.1982

LOG(INVES)	-0.005112	0.003495	-1.462731	0.1939
LOG(NDQ)	0.001027	0.001021	1.006110	0.3532
@TREND	5.72E-05	0.000200	0.285653	0.7847

R-squared	0.624240var	Mean dependent	0.000802
Adjusted R-squared	0.436359var	S.D. dependent	0.000947
S.E. of regression	0.000711criterion	Akaike info	-11.37175
Sum squared resid	3.03E-06	Schwarz criterion	-11.25071
Log likelihood	60.85873criter.	Hannan-Quinn	-11.50452
F-statistic	3.322539stat	Durbin-Watson	3.044165
Prob(F-statistic)	0.098234		

Null Hypothesis: RESID04 has a unit root
Exogenous: Constant
Lag Length: 0 (Automatic - based on SIC, maxlag=1)

		t-Statistic	Prob.*
Augmented Dickey-Fuller test statistic		-4.193179	0.0136
Test critical values:	1% level	-4.420595	
	5% level	-3.259808	
	10% level	-2.771129	

*MacKinnon (1996) one-sided p-values.
Warning: Probabilities and critical values calculated for 20 observations
and may not be accurate for a sample size of 9
Augmented Dickey-Fuller Test Equation
Dependent Variable: D(RESID04)
Method: Least Squares
Date: 03/30/23 Time: 19:39
Sample (adjusted): 2012 2020
Included observations: 9 after adjustments

Variable	Coefficient	Std. Error	t-Statistic	Prob.
RESID04(-1)	-1.272906	0.303566	-4.193179	0.0041
C	-0.004761	0.008732	-0.545281	0.6025


R-squared	0.715247	Mean dependent var	-0.008163
Adjusted R-squared	0.674568	S.D. dependent var	0.045720
S.E. of regression	0.026082	Akaike info criterion	-4.262023
Sum squared resid	0.004762	Schwarz criterion	-4.218195
Log likelihood	21.17910	Hannan-Quinn criter.	-4.356603
F-statistic	17.58275	Durbin-Watson stat	0.944934
Prob(F-statistic)	0.004070		

LOG(UDM_M) =3.73630317133+0.628053687173*LOG(INVES)+0.167950064181*LOG(NDQ) + 0.0547071980975*@TREND + [AR (1) =0.586717421051] (2)

Burada, LOG(UDM_M)– Ümumi daxili məhsukun natural loqarifmi, LOG(INVES)- investisiyaların natural loqarifmi, NDQ- neftin dünya qiyməti, *@TREND– zaman faktorudur. Model (1)-in statistic xarakteristikaları və müvafiq testlər göstərmişdir ki, model adekvatdır. (Bax: Əlavələrə)

Determinasiya əmsalının R-squared=0.967608 olması göstərir ki, izahedici amillərin tədqiq edilən illərdə dəyişməsi izah olunan gstərici olan ümumi daxili məhsulun dəyişməsinin təzminən 96,8%-ni izah edir. Yerdə qalan 3.2% -I nəzərə alınmayan amillərin təsirini xarakterizə edir. Dəqiqləşdirilmiş determinasiya əmsalının (Adjusted R-squared=0.941694) determinasiya əmsalının qiymətinə xeyli yaxın olması bu nəticənin əhəmiyyətini artırır. Qrafik 1-dən göründüyü kimi Faktiki və modeldən alınan qiymətlər xeyli yaxındır. Buna görə də onların arasında fərqin xeyli kiçikdir.

Determinasiya əmsalının R-squared=0.967608 olması göstərir ki, izahedici amillərin tədqiq edilən illərdə dəyişməsi izah olunan gstərici olan ümumi daxili məhsulun dəyişməsinin təzminən 96,8%-ni izah edir. Yerdə qalan 3.2% -I nəzərə alınmayan amillərin təsirini xarakterizə edir. Dəqiqləşdirilmiş determinasiya əmsalının (Adjusted R-squared=0.941694) determinasiya əmsalının qiymətinə xeyli yaxın olması bu nəticənin əhəmiyyətini artırır.



Şəkil 1. Faktiki (Actual), modeldən alınan(Fiffed) və onlar arasında fərqin (Resudual) Dinamikası [13]

LOG(UDM_M) =3.73630317133+ 0.628053687173*LOG(INVES) + 0.167950064181*LOG(NDQ) + 0.0547071980975*@TREND + [AR (1)=0.586717421051]

Nəticə.

- Ölkə iqtisadiyyatına yönəldilən investisiyaların 1% artımı ÜDM-in həcmini 0.62% artırır. Başqa sözlə, ÜDM-in investisiyalara nəzərən elastiklik əmsalı 0.628053687173 -ədədinə bərabərdir;
- Neftin dünya qiymətlərinin 1% artımı ÜDM- in həcmini 0.17% artırır;
- Hər il zaman ənənəsi ilə ölkənin ÜDM həcminin 5.5% artma meyliliyi potensialı mövcuddur.

Təkliflər:

Apardığımız araşdırmalar nəticəsində iqtisadi artımın dövlət tərəfindən tənzimlənməsində aşağıda qeyd olunanların həyata keçirilməsi daha məqsədəuyğun hesab edirik:

- obyektiv reallığa uyğun, iqtisadi subyektlərin normal fəaliyyət göstərməsinə şərait yaradan normativ-hüquqi aktların qəbulu;
- neft sektorundan gələn gəlirlərin qeyri-neft sektorunun inkişafına yönəldilməsi prosesini daha da intensivləşdirmək.
- xarici və yerli investorların ölkəyə cəlb edilməsindən ötrü mütəmadi şəkildə təşviqat işlərinin aparılması
- qeyri-neft sektorunun inkişafı ilə əlaqədar yeni dövlət programlarının qəbulu.
- dünyada gedən maliyyə böhranının fonunda dövlətin pul-kredit siyasətinin dünya maliyə siyasətinə uyğun olaraq daha da təkmilləşdirməli

Ədəbiyyat

1. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı, 2002- 2005
2. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı, 6 dekabr 2016
3. Azərbaycan 2030. Sosial-iqtisadi inkişafa dair milli prioritetlər. 2 fevral 2021
4. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995
5. Həsənli Y. Ekonometrikaya giriş. dərslik. Bakı. 237s.2008

6. Həsənli Y., Murtuzayeva. M., Sadıq S., Əsgərov İ. İqtisadi inkişafın sahələr üzrə şaxələnməsi: diversifikasiya əmsalı, AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, Bakı, 24-27s. 2010
7. Juravlyovanın redaktəsi ilə, İqtisadi nəzəriyyənin əsasları. Makroiqtisadiyyat 1, 2. Bakı. 936s.2015
8. Meybullayev M. X. Makroiqtisadiyyata giriş. Bakı. 294s. 2011
9. Meybullayev M. X. Bazar sistemi və iqtisadi artım. Bakı. 1996
10. Meybullayev M.X. İqtisadi inkişafın qeyri-bərabərliyi, səbəbləri və sosial- iqtisadi nəticələri. İqtisad elmləri: nəzəriyyə və praktika, Bakı. 2003
11. Nağıyev Ə. Sosial – iqtisadi inkişafın metodoloji aspektləri. Bakı. 2002
12. Rəhmanov F.P. Sosial infrastrukturun tənzimlənməsi problemləri. Bakı. 2004
13. Бункина М.К., Семинов В.А. Макроэкономика. Дело. 594с. 2000
14. http://www.economy.gov.az
15. http://www.cbar.az
16. http://www.president.gov.az
17. http://www.azstat.org
18. http://www.oilfund.az

References

1. Azerbaycan Respublikasinda kichik ve orta sahibkarlighin inkishafinin Dovlet Proqrami, 2002-2005
2. Milli iqtisadiyyat ve iqtisadiyyatin esas sektorlari uzre strateji yol xeritelerinin tesdiq edilmesi haqqinda Azerbaycan Respublikasi Prezidentinin fermanı, 6 dekabr 2016
3. Azerbaycan 2030. Sosial-iqtisadi inkishafa dair milli prioritetler. 2 fevral 2021
4. Azerbaycan Respublikasinin Konstitusiyasi. 12 noyabr 1995
5. Hasanli Y. Ekonometrikaya girish. derslik. Baki. 237s.2008
6. Hasanli Y., Murtuzayeva. M., Sadig S., Asgarov I Iqtisadi inkishafin saheler uzre shaxelenmesi: diversifikasiya əmsali, AMEA Iqtisadiyyat Institutu, Elmi eserlər, Baki, 24-27s. 2010
7. Juravlyovanin redaktesi ile, Iqtisadi nezeriyyenin esaslari. Makroiqtisadiyyat 1, 2. Baki. 936s.2015
8. Meybullayev M. X. Makroiqtisadiyyata girish. Baki. 294s. 2011
9. Meybullayev M. X. Bazar sistemi ve iqtisadi artim. Baki. 1996
10. Meybullayev M.X. İqtisadi inkishafin qeyri-beraberliyi, sebebləri ve sosial- iqtisadi neticeleri. Iqtisad elmləri: nezeriyye ve praktika, Baki. 2003
11. Naghiyev Ə. Sosial – iqtisadi inkishafin metodoloji aspektleri. Baki. 2002
12. Rahmanov F.P. Sosial infrastrukturun tenzimlenməsi problemleri. Baki. 2004
13. Bunkina M.K., Seminov V.A. Makroekonomika. Delo. 594s. 2000
14. http://www.economy.gov.az
15. http://www.cbar.az
16. http://www.president.gov.az
17. http://www.azstat.org
18. http://www.oilfund.az

Redaksiyaya daxil olma/Received 11.01.2023
Çapa qəbul olunma/Accepted for publication 11.02.2023

Məqaləyə istinad:. Hacıyev C.C. Azərbaycanda iqtisadi artımın təmin edilməsinin müasir amilləri və şərtlərinin təhlili. Elmi Əsərlər jurnalı AzMİU, s.149-157, N1, 2023
For citation: Hajiyev J.J. Analysis of modern factors and conditions of ensuring economic growth in Azerbaijan.Journal of Scientific works/ Elmi eserler. AzUAC, p.149-157, N1, 2023